**Nadir Məmmədli**
**AMİU,**
**filologiya üzrə elmlər doktoru, professor**
**elm ve tehsil@mail.ru**

# NİTQ MƏDƏNİYYƏTİ: DİL VƏ NİTQ

**Açar sözlər:** dil, nitq, kollektiv təcrübə, fərdi, təbii işarələr sistemi, nitq fəaliyyəti, şifahi və yazılı nitq, dilin funksiyaları;
**Ключевые слова:** язык, речь, коллективная практика, индивид, естественная знаковая система, письменная и устная речь, функции языка.
**Key words:** language, speech, collective practice, individual, natural sign system, written and oral speech, language functions.

Nitq insan fəaliyyətinin spesifik cəhətlərini əks etdirdiyi üçün dilçilikdə iki mənada işlənir: danışıq prosesi (şifahi və ya yazılı) və bu prosesdə səs. Nitq və dil qarşılıqlı əlaqədədir. Nəsillər arasındakı rabitə, xalqın intellektual və mədəni irsi dil vasitəsilə ötürülür. Nitq dilin fəaliyyət formasıdır və məhz nitq sayəsində bu fəaliyyət forması konkret dil aktına çevrilir; nitq, ilk növbədə, onun kommunikativ imkanlarını üzə çıxarır və dildən fərqli olaraq, müəyyən məqsədə xidmət edir. Nitq maddidir – şifahi formada səslənir, yazılı formada isə müəyyən qrafik işarə və vasitələrlə reallaşır. Konkret situasiyadan asılı olaraq, hər ikisi məkan və zaman çərçivəsində funksionallaşır. Məsələn, hazırlanan bir mətn üzrə çıxış fərqli ola bilər; fərq həmin mətni necə qavramaqdan, hansı səviyyədə mənimsəməkdən, məzmunla bağlı nə qədər danışa bilməkdən, hazırlıq üçün nə qədər vaxt sərf etməkdən, hansı məkan və məsafədə həmsöhbətlə nitq fəaliyyətini qurmaqdan və s.-dən asılıdır. Nitq konkret şəraitdə müəyyən fərd (və ya auditoriya) üçün hazırlanır, bu səbəbdən o təkrarolunmazdır, bu və ya digər vasitələrlə yazıya alınsa belə, hər dəfə səsləndikdə mövcud şəraitə uyğun dəyişir, eyni hal daim təkrar olunur (Sokratın məşhur kəlamındakı kimi: “Axar çayın suyunda iki dəfə çimmək olmaz”). Bu ölçü ilə yanaşsaq nitq müəyyən fasilə və fasiləsiz sonsuzluğa qədər davam edir, mahiyyət etibarı ilə bütün həyatımız nitqlə qurulur - dəyişən şərait, həmsöhbət, nitqin mövzusu və formasıdır. Bu yanaşma ilə nitq düz xətt üzrə inkişaf edir, müəyyən ardıcıllıqla hər bir cümlə digərindən sonra söylənilir. Şifahi nitq prosesi tempə (sürətli və ya asta), qısa və ya uzunluğuna, adıcıllığa, səs gücünə,

artikulyasiyaya görə fərqlənir. Yazılı nitq aydın (asan oxunan), ya da qəliz (çətin oxunan), böyük, yaxud kiçik həcmli ola bilər. Yəni, nitqin maddiliyini müxtəlif nümunələrlə təsvir etmək mümkündür. Nitqdən fərqli olaraq, dil daha ideal hesab olunur, çünki o, nitqdən kənarda, yalnız danışan adamın təfəkküründə mövcuddur, yaxud məyyən hissəsi müxtəlif lüğətlər (birdilli, ikidilli, sahə, izahlı və s.) və yaddaş (sorğu) kitablarında cəmlənib. Nitq, bir qayda olaraq, fərdin – yazan və ya danışanın fəaliyyətini əks etdirir, dil insanın müxtəlif, rəngarəng xüsusiyyətlərinin təcəssümüdür. Bu səbəbdən də nitq həmişə subyektivdir, yazan, yaxud danışan öz nitqinin məzmununu təyin edir, fərdi düşüncəsini və təcrübəsini ərsəyə çıxarır. Dil isə ifadə sistemidir, kollektiv təcrübədə qazanılır, həmin dildə danışan xalqın mentalitetini əks etdirir. Nitq fərdi olsa da, dilin bütün imkanlarından istifadə etmək mümkün deyil, insanlar lazımi şəraitdə müvafiq bildikləri sözlərdən yararlanır, ünsiyyət zamanı öz bilik və söz ehtiyatlarına əsaslanırlar. Nitq danışan adamın psixoloji vəziyyətindən asılı olaraq, onun kommunikativ vəzifəsini həyata keçirir, bu həmsöhbətin səmimiyyətinə uyğun şəkildə müşayiət olunur. Ola bilər ki, söz, hətta cümlələr intonasiyaya görə fərqli səslənsin, müvafik vəziyyətdə başqa məna kəsb etsin.

Cümlə qurarkən ünsiyyət vahidi kimi çıxış edən dil nitqə çevrilir. M.M.Baxtin bu prosesi müəyyən sərhədlərə ayırır: “Cümlə dil vahidi olaraq, qrammatik xüsusiyyət daşıyır, buna qrammatik sərhəd, qrammatik bitkinlik və vahidlik deyilir; deyiliş qaydasından asılı olaraq, öz məqsədini həyata keçirmək üçün stilistik xüsusiyyət kəsb edir” (1, 7-8). Cümlə, dil vahidi olaraq, ünsiyyət quran tərəflərin nitq aktları ilə məhdudlaşmır, fikir bütövlüyünü tam əks etdirməsə də, həmsöhbətlərin qarşılıqlı mövqeyini ifadə edir. Öz növbəsində, fikir cümlələrdə nitq məzmununa görə fərqlənir, yəni başqalarının dediklərinə hesablanmasa da, həmsöhbət ona ünvanlanan fikrə aktiv şəkildə cavab vermək mövqeyində olur. Fikir məna bütövlüyü kəsb edir və digər nitq amilləri ilə birlikdə lazımi ifadə gücünə malikdir. Humboldt haqlı olaraq yazır: “Dil fikri təşkil edən orqandır. Tamamilə ruhi, dərin daxili və izsiz keçici olan əqli fəaliyyət nitq vasitəsilə materiallaşır və hissi qavramaq üçün mümkün olur. Təfəkkür və dilin fəaliyyəti buna görə bölünməz vahid təşkil edir” (2, 23). Lakin dil təkcə nitq amilləri ilə məhdudlaşmır, eyni zamanda qeyri-dil (qeyri-söz, yaxud, qeyri-şifahi, qeyri-yazılı və s.) növləri də nəzərə alınır: səs, intonasiya, hərəkət, mimika, poza, vəziyyət və s. Əgər nitqdən ünsiyyət prosesi kimi danışırıqsa və mətni nitqin bir forması kimi qəbul ediriksə, bu hədd prinsipi dil ilə ümumi məna daşıya bilməz, çünki mətn

dil kimi heç bir halda müstəqil ola bilmir, mətn məhz dil çərçivəsində nitqdə yaranır: nitq xarici (ifadə edilmiş, yaxud, yazılmış) və daxili (başqalarının eşidə, görə bilmədiyi) formalarda ola bilər. Daxili nitq bizə düşüncələrimizi, fikrimizi ifadə etmək, öz-özümüzlə danışmaq, daxili qərarlarımızı vermək (səssiz nitq), eyni zamanda yaddaşımızı təzələmək, xatırlamaq üçün gərəkdir. Xarici nitq müxtəlif nitq formaları ilə təsdiqini tapır, məsələn, çıxış, məruzə, mühazirə, vidalaşma və s. Nitq mətni bu və ya digər şəkildə müəyyən funksional üslublardan yararlanır: elmi, rəsmi, işgüzar, publisistik, bədii, məişət və s. Nitq mətn kimi lazımi şəraitdə ifadə edilir, əhəmiyyətinə, gerçəklik və yanaşma mövqeyinə görə (*doğru - müəyyən qədər doğru - yalan*) dəyərləndirilir. Nitq və mətn həm estetik (*gözəl - çirkin - iyrənc*), həm də etik (*yaxşı - pis*) və s. funksiya daşıyır. Dilin bütün funksiyaları nitqlə ifadə olunur, lakin nitq bu prosesdə yeganə vasitə deyil. Nitq özündə hər zaman fərdin yaradıcı fəaliyyətini ifadə edir, ona görə də dəyərləndirməyə ehtiyac duyur və bu, dil ilə müqayisədə tamam fərqli mənada qəbul edilir; nitqə daha çox mədəniyyət anlamı kimi yanaşdıqda özünü doğruldur.

Dil və nitq fərqli anlayışlar olsalar da, qeyd etdiyimiz kimi, bir-biri ilə sıx bağlıdırlar - nitq dilin işlək formasıdır və daim fəaliyyətdədir. Dil, birmənalı, nitqlə ifadə olunur, nitq təsadüfi hallarda danışıq dilini əvəz edə bilmir (müqayisə et: M.Füzulinin məşhur beyti: *Eyləsən tutiyə ədəbi kəlimat; Nitqi insan olur, əmma özü insan ola bilməz*). Nitq və dil bir-biri ilə o qədər sıx bağlıdırlar ki, bəzən bu hadisələri ayırd etmək çətin olur. Məsələn, "dil təcrübsəi", "dil daşıyıcısı" anlayışları bu və ya başqa dillə müqayisədə aydın olur. İnsanın dil anlayışlarının əsasında onun bilik və bacarıqları dayanır, konkret şəxsə aid olduqda "dil təcrübəsi" və "dil daşıyıcısı" nitq düşüncəsidir. Bu, müstəsna halları nəzərə almaqla, dil və nitqin ayrı mövcud ola bilmədiyinə sübutdur. Yüksək nitq mədəniyyətinə yiyələnmək üçün, ilk növbədə, nitqin tərkib hissəsi olan şüurlu və məqsədyönlü fəaliyyət müəyyənləşdirilməlidir; mədəniyyət hər zaman şüurlu şəkildə nəyi tətbiq etməyi, nədən boyun qaçırmağı müəyyən edir.

Hər bir insan tarixi zəmində mədəniyyətə qarışır, eyni zamanda hər kəs fərdi şəkildə mədəniyyətin ona da məxsus olduğunu dərk edir, lakin mədəniyyətin fundamental səviyyəsi dillə formalaşır. Dil daşıyıcısı insandır və o, dialektik qanunlarla dili zənginləşdirir, təkmilləşdirir, mənəvi yaradıcılıqla, şüurlu və məqsədyönlü fəaliyyəti ilə sərbəst mətnlər yaradır, fikrini izah edir. Dil və nitq haqqında bilik və bacarıqlar nitq mədəniyyətinin mahiyyətini anlamağı, yüksək səviyyəli mədəniyyətə

gedən yolu dərk etməyi öyrədir. Dildəki bütün münasibətlərin məcmusu onun ünsiyyət vasitəsi olmasıdır, bu isə onun ictimai vəzifəsini şərtləndirir. Lakin dildən başqa da ictimi hadisələr mövcuddur. Bəs, dil başqa ictimai hadisələrdən hansı keyfiyyətləri ilə fərqlənir? İşarəvi səciyyəsi ilə:

1.Dil – işarələr sistemidir, müəyyən anlayışı ifadə edən sözdür, verilmiş məzmunun ifadəsi, səs cildidir. O zaman dil olur ki, bu və ya digər səs, söz, cümlə məna, işarələr müəyyən bir fikir bildirir. Məsələn, Azərbaycan dilindəki *bəli* və *xeyr* səsləri konkret məna kəsb edir və müvafiq intonasiya ilə razılıq və narazılıq əlamətini bildirirlər.

2.Dil – işarələr sistemidir, tam şəkildə funksionallaşır; işarələr ayrı-ayrılıqda sadəcə səsdir, amma konkret məqsəd üçün birləşdikdə vahid forma alırlar. Hər bir işarə tamın bir parçasıdır.

3.Dil – işarələr sistemidir; siqnifikativ funksiyaya malikdir, müəyyən predmet və ya real hadisə haqqında fikir mübadiləsinə xidmət edir. Hər bir işarə nəyisə təmsil edir, buna reprezintasiya deyilir. Bu yalnız insana xasdır, idraki və kommunikativ fəaliyyəti üçün mühüm vasitədir. İşarə dedikdə dilçilikdə siqnallar, simvollar yox, dil nomenklaturaları nəzərdə tutulur. Onlar iki formada olur: ideal - səs, yazı şəklində və maddi. Hər bir dil işarəsi forma və məzmuna malikdir. Dil işarəsi danışanların şüurunda mənalar və hissi obrazlar şəklində mövcuddur, ünsiyyət vasitəsi kimi insanlara xidmət edir. İşarələnənlərin əlaqəsi qeyri-ixtiyari, şərtidir, motivləşməmişdir – bu, semiotik prinsipdir. Dil işarələri ekstralinqvistik faktorların (məsələn, dialektizmlərin), həm də dil daşıyıcılarının təsirinə məruz qalır. İşarənin yaşama hüququ ənənə ilə bağlıdır. Linqvistik işarələr maddi və mənəvi fəaliyyətin məhsuludur və qapalı səciyyəlidir. Dünyanın dərk olunması yalnız dil formasında təzahür edir.

4.Dil – təbii işarələr sistemidir, bu işarələrin əsas vahidi sözdür, belə ki, dil işarəsi şüurda əqli obraz, qrafik şəkildə, akustik qavramada özünü göstərir. Əsas işarə - sözdə məna və akustika vəhdət təşkil edir. Ferdinan de Sössür anlayışla akustik obrazın birləşməsini işarə adlandırır (3, 145). V.F.Humboldtun fikrincə, dildə həlledici faktor səslərin bolluğu deyil, daha çox əksinə, nitqi qurmaq üçün lazim olan səslərin miqdarının əhəmiyyətli dərəcədə ciddi məhdudluğu və onlarin arasinda düzgün müvazinətdir (2, 105). Söz işarəsinin ünsiyyət prosesində xüsusi rolu vardır. Söz işarəsində fikri fəaliyyətlər – eyniləşdirmə və diferensiallaşdırma həmişə çarpazlaşır. Bu işarə nominativ dəyərlərə (yəni, əşya və hadisələri, onların əlamət və keyfiyyətlərini adlandırması) və sintaktik valentliyə (sintaqmatik sırada müxtəlif leksik əlaqələrə) malikdir. Məhz

bu iki funksiya ilə söz işarələri əsas və köməkçi adlara bölünürlər (bax: 4, 83-84). F.de.Sössür insanın danışmaq qabiliyyətini, bacarığını nitq fəaliyyəti adlandırır. Nitq fəaliyyətini daxili nitq və nitq deyə iki yerə ayırır. Müəllifin fikrincə, nitq aktı elə nitqdir. Daxili (psixi) və xarici (səs) cəhətləri ilə fərqlənən nitq həm fərdi, həm də sosial mahiyyət daşıyır. Dil nitq fəaliyyətinin mühüm hissəsidir. Dil anlayışı da dil fəaliyyəti mənasına uyğundur; dil qapalı, bütövdur, hadisələri təsnif etmək üçün bazadır. Dil fəaliyyətində nitq aktları yaranır - hər nitq aktı ən azı iki şəxsin iştirakını nəzərdə tutur. Dil nitq təcrübəsi vasitəsilə ictimai kollektivə mənsubdur, fərdlərin məcmusunda qrammatik sistemdir, yəni tam halda fərdlərdə yox, kollektivdə mövcuddur. Dil danışanın fəaliyyəti yox, passiv surətdə qeyd etdiyi hazır məhsuldur; heç vaxt qabaqcadan nəzərdə tutulmur, ondan şüurlu şəkildə istifadə olunur. Əksinə, nitq idrakın fərdi aktıdır, danışan öz fikrini ifadə etmək məqsədilə istifadə etdiyi dil kombinasiyalarını fərqləndirir.

Dil nitq aktları bolluğunda əsasdır; nitq qabiliyyətini itirmiş adam belə dili mühafizə edir, çünki eşitdiyi dil işarələrini başa düşür. Nitqdən fərqli olaraq, dil sərbəst öyrənilə bilir. Nitq təbiətinə görə bircinsli hadisədir, onda mühüm olan, qeyd etdiyimiz kimi, məna və akustik obrazların birləşməsidir. Dil nitqdən fərqli olaraq konkretdir; dil işarələri mahiyyətcə psixi olsa da, onlar mücərrəd deyil, kollektiv razılıqla möhkəmləndirilmiş, assosiasiya ilə beyində lokallaşdırılan reallıqdır. Dil işarələrini yazıda şərti işarələr vasitəsilə təsbit etmək mümkündür. Dil sosialdır - şərtidir, mənsub olduğu fərdin şüurunda potensial surətdə mövcud olan leksik və qrammatik sistemdir, nitq isə fərdidir, psixi-fizioloji prosesdir. Müəyyən qrup danışanlar mövcud olmadıqda, dil də yaşamır – dil o dildə danışan fərddən asılı deyil, fərd dili hazır şəkildə mənimsəyir. Nitq dil vasitəsilə fərdin öz fikrini ifadə etmək aktıdır. Bütün dil dəyişmələri nitqdə baş versə də, bu dəyişikliklər dilin səs sistemini dəyişmir. F.de.Sössürə görə, dil kollektiv razılıqla təsdiq edilmiş və məcmusu dili təşkil edən assosiasiyalar, beyində yerləşən reallığın mahiyyətidir. Nitq isə fərdi ifadə və qavrama aktıdır. Nitq subyektin şəxsi fikirlərini ifadə etmək məqsədilə dil kodeksləri kombinasiyası, onları obyektivləşdirməyə imkan verən psixoloji mexanizmdir. Nitq insanların danışdıqlarının cəmidir, danışanların iradəsindən asılı olan fərdi kombinasiyalar və onları həyata keçirmək üçün zəruri olan danışma aktlarıdır. Ona görə də nitqdə kollektiv olan heç bir şey yoxdur, onun təzahürü fərdi və anidir. Nitqin başa düşülməsi və icra edilməsi üçün dil zəruridir - dil nitqin həm aləti, həm də məhsuludur. Nitq ayrıca fərd tərəfindən törənir, dil əvvəlki nəsillərin miras qoyduğu

şəkildə qəbul edilir. Dil danışan subyektin funksiyası deyil, fərd tərəfindən passiv qəbul edilən məhsuldur; nitq dərketmə və ifadənin fərdi aktıdır. Dildə mühüm olanlar dil təcrübəsi vasitəsilə təsbit edilmiş dilin normativ aktlarıdır, qeyri-normativ aktlar nitqdə hər cür tərəddüdlər və fərdi pozuntulardır. Dil ictimai səciyyə daşıyır, lakin cəmiyyət bir nəfərdən yox, çoxlu fərddən ibarətdir. Bu fərdlər yekcins deyillər, onların dilə münasibəti də yekcins ola bilməz. Müxtəlif fərdi uzaqlaşmalar, pozuntuların baş verməsi təbiidir. Bunlar, adətən, leksikaya aiddir, fonetik, qrammatik sapıntılar nadir hallarda baş verir. Leksik dəyişmələr dilin ictimai səciyyəsini dəyişmir.

Nitq konkret, dil mücərrəd hadisə olsa da, dil işarələri yazıda qrafik şəkildə göstərilə bilir. Akustik və qrafik obraz dilin potensial faktıdır. Bütün sabitləşmiş münasibətlərin məcmusu dili təşkil edir və onun fəaliyyətini müəyyənləşdirir (ətraflı bax: 3, 78-82; 5, 15-31).

Hər bir cəmiyyətin həyatında, sosial mühitdə dilin böyük əhəmiyyəti vardır, çünki insanın yaranışı və mövcudluğu ilə dilin təşəkkülü bir-biri ilə sıx bağlıdır. İnsanın dili heyvanın dilindən fərqlidir; özündə müxtəlif siqnalların cəmini əks etdirən insanlar bir-birinə müəyyən və qeyri-müəyyən informasiyalar ötürürlər. Buna *düşüncə tərzi* deyilir. Dildən istifadə etmək təkcə onunla mübadilə etmək yox, həm də dil daşıyıcıları tərəfindən ona nəzarət etmək, onu inkişaf etdirməkdir. Dilin insan düşüncəsində müstəsna rolu vardır, yəni, fikri formalaşdırmaq nitq təfəkkürü prosesini əks etdirir. A.Y.Panova tanınmış fransız dilçisi A.Martineyə istinadən yazır: “Dil hər şeyi söyləyə bilmək vasitəsidir” (6, 112).

İspan basklarının dilini öyrənən Humbold belə qənaətə gəlib ki, müxtəlif dillər təkcə ümumbəşəri düşüncənin təzahürü deyil, eyni zamanda dünyanı fərqli görə bilməkdir, çünki dil dünya tarixinin yaranmasında əsas amil hesab edilən insana məxsusdur və istənilən etnik mənsubiyyətə aid insan məhz dil vasitəsilə “ağıllı insan”a (*homo capiens*) çevrilir və uşaqlıqdan dil öyrənərək, həm də öz xalqının tarixini mənimsəyir. Dil ünsiyyəti fikri ifadə etmək üçün vacib olan, əsasında yaddaş, təsəvvür, diqqət dayanan idrak prosesi ilə sıx bağlıdır və bu da öz növbəsində fikirlərin yaranmasına, formalaşmasına təsir edir. Dilin universal mahiyyəti ondan ibarətdir ki, insanlar məhz onun vasitəsilə digər insanlara, eləcə də özünə müraciət edə bilərlər. Adresant (danışan) və adresatı (dinləyən) zaman və məkan anlayışı ayırır. Dil ünsiyyəti bütün kommunikativ münasibətlərdə ifadə olunan və nitq ünsiyyətinin bu və ya digər funksiyalarını həyata keçirən müxtəlif informasiyaları əhatə edir: *koqnitiv* (idrak), *requlyativ* (danışanın məqsədi), *emosional-ekspressiv* (təəssürat yaratma), *fatik* (əlaqə yaratma) və *magik*

(ovsunlama). Kommunikativ (dil – ünsiyyət vasitəsidir) və koqnitiv (dil – anlamaq və informasiya ötürmək vasitəsidir) münasibətlər baza funksiyasıdır. Deyilənləri nəzərə alsaq: dil insanların fikir informasiyasını ötürən  və hisslərini ifadə edə bilən alətdir, insan ünsiyyətinin ən əsas vasitəsidir. Dil, həm də anlaşma vasitəsidir, onun köməyi ilə insanlar bilik əldə edir, bu biliklər başqalarına və fərqli nəsillərə ötürülür.

İnsan digər canlılardan təkcə düşünmək qabiliyyəti (*homosapiens*) ilə yox, həm də yaradıcı olması (*homofober*), danışığı (*homoeloquens*), ünsiyyəti (*homocommunicans*) ilə fərqlənir. İnsanın ağlı fikri daha adekvat ifadə etməyə, həyat tələbatını təmin etməyə, ana dilini, başqa, hətta süni dilləri öyrənməyə imkan verir. Süni dillər müxtəlifdir, onlar həyatın fərqli sahələrini əhatə edir, bəzən beynəlxalq əhəmiyyət daşıyırlar (məsələn, *esperanto, volapyu* və s.). Süni dillər həm də simvolik elmi dillərdir: *riyaziyyat, məntiq, kimya* və s.-nin dili. Süni dillərə insan - maşın ünsiyyətini  də əlavə etmək olar: *proqramlaşdırma, məlumat bazasının idarə olunması* və s.

İnsan nitqinin məzmun zənginliyi təfəkkür və dil səviyyəsindən asılıdır. Burada dil vahidlərinin rolunu da qeyd etmək lazımdır: fonem - nitq səsini (fonem səviyyəsini), morfem - sözün müəyyən hissəsini, söz – leksik mənanı, söz birləşmələri və cümlələr isə sintaksisi təşkil edir. Öz növbəsində bu səviyyələr müəyyən dil vahidlərini özündə birləşdirir: cümlə - sözlərdən, söz – morfemlərdən, morfem isə fonemlərdən əmələ gəlir. Morfemlər sözdən fərqlənir: söz sintaktik müstəqilliyə malikdir, morfem əksinə, bu müstəqillikdən məhrumdur; sözlərdən fərqli, norfemlər asılı cəciyyədədirlər, məfhum əşya və hadisələr haqqında ümumiləşmiş təsəvvür yaradır, söz bu və ya digər məfhumu ifadə edir.

Dilin əsas işarəsi sözdür. Söz  səsli və ya yazılı işarədir, hissiyyat orqanlarının qəbul etdiyi, heç bir şeylə əvəz olunmayan anlayış və ya alətdir, ona görə də başqa dil işarələrindən fərqlənir. Söz nitqin canlı proseslərində formalaşan, dinləmə və qavramaya aid edilən müstəqil mahiyyətdir. İşarələr sistemində fonem və morfemlərin rolu çox azdır - cümlə ən mükəmməl kommunikativ işarədir. Dilin bütün işarələri cümələr vasitəsilə hərəkətə gəlir, cümlələr nitqin vəziyyətindən və kontekstindən asılı olaraq bir-biri ilə əlaqə yaradırlar. Cümlə dilə istənilən fikri və informasiyanı ifadə etmək imkanı verir. Bu, nitqi anlaşıqlı edir, dil isə semiotikanın kifayət qədər böyük, eyni zamanda kompakt vahididir. Dil vahidləri arasında mürəkkəb qarşılıqlı əlaqə yaranır; bu əlaqə dilin müxtəlif, dəyişkən funksiyalarını nəzərdə tutan sistemin bütövlüyünü və tamlığını  ehtiva edir - hər bir dil vahidi müəyyən və hamı tərəfindən qəbul edilmiş mənaya malik olur və bu

formada konkret əhəmiyyət daşıyaraq, nitqin ayrılmaz parçası olan dil keyfiyyətlərini - informasiyanı qəbul etmək və ötürmək, sosial təcrübə toplamaq, milli mədəniyyəti qoruyub-saxlamaq imkanlarını əks etdirir. Beləliklə, dil insanların düşüncələrini ifadə edən, iradələrini bildirən işarələr sistemi və ünsiyyəti üçün universal vasitədir

Bəs dilin əsas funksiyaları nədir? İlk növbədə informasiya mübadiləsidir - kommunikativ funksiya yerinə yetirməsi, başqa sözlə, ünsiyyətə xidmət etməsidir. Biz bir-birimizlə doğma dilimizdə danışırıq, müxtəlif informasiyaları alır və ötürürük. İkinci funksiyası insanın onu əhatə edən mühit haqqında yeni biliklər əldə etməsidir (idrak və koqnitiv). Beləliklə, istənilən canlı dil ünsiyyət və gerçəkliyi dərk etmək üçündür. Ona görə də nitq mədəniyyətində dil bilikləri sisteminə istinad edərək, nitqin əsas funksiyalarını daha təsirli, əhəmiyyətli etmək üçün dildən necə istifadə etmək qaydaları öyrənilir. Dilin əsas funksiyalarına həmçinin *emosionallıq* (hiss və həyəcanın ifadəsi) və *metadil* (dilin tədqiqi və təsviri) aid edilir. Emosional funksiya insan üçün çox vacibdir, hər kəs məhz bu vasitə ilə öz hisslərini, daxili aləmini, düşüncələrini, dəyərlərini və s. təqdim edə bilir. Dil təkcə məntiqi deyil, adekvat olaraq emosional informasiyaları ötürməyə də xidmət edir. Gündəlik həyatımızda dilin metadil funksiyası bir o qədər də önəmli olmasa da, yazılı və şifahi mətnlər bu funksiya hesabına yaranır. Bura başqa funksiyaları da əlavə edə bilərik: *əlaqə yaratma, informasiyanı mənimsəmə, təsir etmə, kumulyativ* (*informasiyanı saxlamaq və ötürmək*) və *estetik-aksioloji* (*dəyərləndirmə*). Bütün bu funksiyalar dilin bir daha ayrıca fərdə yox, müəyyən cəmiyyətə, insanların bir-birini başa düşməsinə xidmət etməyinin göstəricisidir. Dil bu funksiyaları nitq mübadiləsinə ehtiyac duyulduğu zaman icra edir.

## ƏDƏBİYYAT:

1. Бахтин М.М. Искусство и ответственность // Бахтин М.М. Работы 20-х годов. Киев: Next, 1994.
2.Vilhelm Fon Humboldt. Bəşər dilləri quruluşunun müxtəlifliyi və bunun bəşəriyyətin mənəvi inkişafına təsiri haqqında. Bakı, "Nurlan", 2008.
**3.**Ferdinant de Sössür. Ümumi dilçilik. Bakı, BDU nəşr., 2003.
4.Z.Verdiyeva, F.Ağayeva, M.Adilov. Dilçilik problemləri. I hissə. Bakı, "Maarif", 1982.
5. Ə.Rəcəbli. Ferdinant de Sössürün dilçilik görüşləri. Bakı, İqtisad Universiteti, 2003.

6. Панова М.Н. Русский язык и культура речи: учеб. пособие / М.Н. Па-нова, А.Ю. Иванова, Ж.В. Ларионова. – М.: Изд-во РА Г С , 2008.

**Надир Мамедли**

**Культура речи: язык и речь**

**Резюме**

Речь, отражая специфические особенности человеческой деятельности используется в двух значениях: речевой процесс (письменный или устный) и звуки в этом процессе. Язык и речь взаимосвязаны. Связь между поколениями, интеллектуальность и культурное наследие передается с помощью языка. Речь -это форма языковой деятельности и именно за счет речь эта деятельность переходит в конкретный языковой акт; речь, в первую очередь, выявляет ее коммуникативные возможности и в отличие от языка служит определенной цели. Речь материальна – используется в устной форме, а в письменной форме реализуется в знаках и средствах. В зависимости от конкретной ситуации, оба функционируют в рамках времени и пространства.

Речь является психологическим механизмом, дающим возможность объективации языковых кодексов с целью выражения собственного мнения субъекта. Речь – это сумма речей людей, этой речевые акты, служающие для реализации индивидуальных комбинаций индивида, зависимых от воли говорящих. И поэтому в речи нет ничего коллективного, ее отражение индивидуально и мгновенно. Для понимания речи язык важен – язык является и средством, и продуктом речи. Основная функция языка – это обмен информацией, выполнение коммуникативной функции, другими словами служение общению. Мы говорим друг с другом на родном языке, получаем и передаем различную информацию. Вторая функция – это знание человека об окружающей среде (мыслительная и когнитивная). Таким образом, любой живой язык служит для общения и восприятия действительности. Поэтому культура речи, опираясь на знание языка учит как с помощью языка сделать его функции более действенными. К функциям языка также относят эмоциональность (чувства и выражение беспокойства) и метаязык (описание и исследование языка).

**Nadir Mammadli**

**Speech culture: language and speech**
**Summary**

Speech, reflecting the specific characteristics of human activity is used in two ways: the speech process (written or oral) and sounds in the process. Language and speech are interrelated. Intergenerational communication, intellectuality and cultural heritage are transmitted through language. Speech is a form of linguistic activity, and precisely at the expense of speech this activity passes into a specific linguistic act; speech, first of all, reveals its communicative capabilities and, unlike language, serves a certain purpose. Speech is material – it is used orally, and in writing is realized in signs and means. Depending on the specific situation, both of them function within the time and space.

Speech is a psychological mechanism which makes it possible to objectify language codes in order to express your own opinion of the subject. Speech is the sum of people's sayings and acts serving to implement individual combinations of the individual, dependent on the will of the speakers. And therefore there is nothing collective in speech; its reflection is individual and instant. To understand speech, language is important - language is both a means and a product of speech.

The main function of the language is the exchange of information, the performance of a communicative function, in other words, the service of communication. We speak to each other in our native language, we receive and transmit various information. The second function is a person's knowledge of the environment (mental and cognitive). Thus, any living language serves to communicate and perceive reality. Therefore, the culture of speech, based on the knowledge of the language, teaches how, with the help of the language, to make its functions more effective.

Emotionality is also the function of language (feelings and expression of anxiety) and met language (description and study of the language).